Bu gün Azərbaycanda peşəkar nəfəsli ifaçılıq sənətinin tarixi, nəzəriyyəsi və təcrübəsinin tədqiq olunması zəruri və aktual görünür. Belə ki, musiqi ifaçılığının hazırkı sahəsində cəm olan nəsillərin zəngin və dəyərli təcrübəsinin öyrənilib, dərk edilməsi milli musiqi mədəniyyətinin gələcək tərəqqisinə kömək edəcəkdir.

Hazırkı dissertasiyanın aktuallığı ondan ibarətdir ki, müəllif ardıcıl bir şəkildə Avropa tipli nəfəs alətlərinin ifaçılıq yolunun başlanğıcından: hazırkı ixtisas üzrə kafedranın yaranması, pedaqoji kollektivin formalaşması, professional kadrların tərbiyə olunmasından yuxarıda adı qeyd olunan alətlər üçün milli musiqi ədəbiyyatın yaradılmasına qədərki inkişafını izləyir. İlk dəfə olaraq, demək olar ki, bütün nəfəs alətlər növünün baniləri haqqında informasiya təqdim olunur, varislik əlaqələri və bu çoxcəhətli prosesin əsasını qoyan müəllimlər nəslinin sonrakı nümayəndələri ilə bağlılığı təhlil edilir. Bütün bu elementlər pedaqogika və ifaçılığın sintez halında təkmilləşdirilməsi baxımdan nəzərdən keçirilir. Odur ki, nəfəs alətlərini tədris edən müəllimlərin fəaliyyətinə nəzər yetirilir, tələbələrin ifaya yiyələnməsi, onlarda zəruri ifaçılıq vərdişlərinin inkişaf etdirilməsi və musiqi görüş dairəsinin genişləndirilməsinə dair onların konseptual baxışları irəli sürülür, bu isə professional kadrların tərbiyəsində zəruridir.

Müasir Azərbaycan musiqi ifaçılıq sənətində nəfəs alətləri özünün zəngin üslub müxtəlifliyi, fərdi ifaçılıq xüsusiyyətləri ilə şərtlənən layiqli nümayəndələri ilə qarşılıqlı əlaqədədir. Onlardan hər biri nəfəsli milli

musiqi ifaçılıq ənənələrinin gələcək inkişafı və çiçəklənməsinə fəal surətdə imkan yaradır. Odur ki, onların zəngin ifaçılıq və pedaqoji təcrübəsinin öyrənilməsi və tədqiqi aktualdır. Təqdim olunan dissertasiya işinin perspektivli istiqaməti məhz bununla müəyyənləşir. Azərbaycanda nəfəsli musiqi ifaçılıq sənətinin parlaq nümayəndələrinin çoxcəhətli yaradıcılıq fəaliyyətinin gələcəkdə tədqiqi işin elmi potensialını təşkil edir.

**İşin elmi işlənmə dərəcəsi.** Bir çox Azərbaycan musiqi ifaçılarının, bəstəkarların, alimlərin geniş elmi-tədqiqi, metodik və ifaçılıq təcrübəsinin öyrənilməsi musiqi ifaçılıq mədəniyyətinin hazırkı sahəsinin maraqlı və zəngin tarixi inkişafından bəhs edir. Azərbaycan alimlərinin musiqi sənətinə dair müxtəlif əsərləri özündə nəfəsli alətlərin musiqi ifaçılıq ənənələri və musiqi təhsilinin tədqiqi üçün mühüm informasiya cəm edir.

Hazırkı problemin tədqiqi zamanı Azərbaycan musiqi mədəniyyətinin təşəkkül və inkişaf tarixinə həsr edilən elmi əsərlər: S.İ.Hacıbəyovun ümumi redaktorluğu altında dərc olunan "Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyası" (1972); "Azərbaycan musiqisi" (1961); S.A.Abdullayevanın "Azərbaycan xalq musiqi alətlərinin tarixi inkişafı" (1991); M.Dilbazovanın "Bakının tarixi keçmişindən" (1985); Ə.İsazadənin "İnqilabaqədərki Bakının professional musiqi həyatının tarixçəsi" (1987); N.Kərimov, A.N.Yusifovanın "Müasir Azərbaycan musiqi təhsilinin səlnaməsi (1895-1995)"; N.İ.Ələkbərovanın "VIII-XVI əsr Azərbaycan mədəniyyəti kontekstində musiqi" (1996); N.D.İsmayılzadənin "Azərbaycan musiqisinin tarixindən" (2007) böyük rol oynamışdır.

Nəfəsli ifaçılıq sənətinin tarixi, nəzəriyyəsi və təcrübəsinin tədqiqində müxtəlif nəfəsli alətlərdə ifaçılıq məsələlərinə həsr olunan elmi-metodik xarakterə malik çoxsaylı əsərlər fundamental rol oynayır. Məsələn, A.X.Maqomedovun "Nəfəsli alətlərdə çalğı metodikası" (1962), "Milli faqot ifaçılığının tarixi, nəzəriyyəsi və təcrübəsi" (1983); Ə.M.İsgəndərovun "Fleyta Azərbaycan bəstəkarlarının yaradıcılığında" (1975), "Fleyta üçün əsərlərin üslub və ifaçılıq xüsusiyyətləri" (2002); A.C.Abdullayevin "Qoboy ifaçılığının nəzəriyyə və təcrübəsi" (1968), "Avropa tipli nəfəs alətlərinin ifaçılığına dair tarixi oçerk" (2003); M.B.Novruzovun "İki sistemli klarnetdə ibtidai təhsilə dair dərs vəsaiti" (1971); A.M.Rəhmanlının "Azərbaycanda klarnet ifaçılıq sənəti" (2010);Y.Y.Axundzadənin "Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının fleyta sinfinin tarixi" (2013); R.Y.Axundzadənin "Truba sinfinin tarixi" (2014) və digər əsərlərin adını çəkmək olar.

Hazırkı problemin tədqiqi ilk növbədə, nəfəsli ifaçılıq sənəti və pedaqogikasının tarixi, nəzəriyyəsi və təcrübi inkişafı sahəsində meydana gələn həm milli, həm də xarici fundamental elmi əsərlərə: A.Vasilyev, V.Tsibin, M.Tabakov, İ.Kostlan, S.Eryomin, Q.Orvid və digərlərinin tədqiqat işlərinə dayaqlanır.

Bakı Musiqi Akademiyasının, eləcə də Bakı Musiqi Akademiyası nəzdindəki Xüsusi Musiqi Məktəb-studiyasının bazasında keçirilən elmi-nəzəri, elmi-praktiki və elmi-ifaçılıq konfrans materialları, həmçinin, öz musiqi yaradıcılıq fəaliyyətini ölkə xaricində həyata keçirən musiqi xadimləri ilə dissertasiya müəllifinin şəxsi məktublaşmaları çox mühüm elmi informasiya kəsb edir. Azərbaycanda nəfəsli alətlərin ifaçılıq tarixi, nəzəriyyəsi və təcrübi inkişafı kompleksli şəkildə ilk dəfə iddiaçı tərəfindən irəli sürülür.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, təqdim olunan işdə ilk dəfə Azərbaycanda Avropa tipli nəfəsli alətlərin ifaçılıq problemi tarixi, nəzəri və təcrübi aspektin qarşılıqlı əlaqəsi, onların bir-biri ilə vəhdəti və ümumilikdə bu prosesin yüksələrək, gələcəkdə stimullaşdırılması araşdırılır:

- nəfəsli musiqi ifaçılıq sənətinin inkişaf tarixinin şərtləri və nəfəsli alətlərdə professional ifaçıların ilk nəslinin təşəkkül prosesi üzə çıxarılır;
- milli nəfəsli ifaçılıq məktəbinin baniləri və görkəmli nümayəndələrinin rolu elmi nöqteyi-nəzərdən üzə çıxarılır;
- nəfəsli ifaçılıq sənətinin nəzəriyyəsi və elmi-metodik təcrübəsi hərtərəfli tədqiq olunur;
- müasir Azərbaycan nəfəsli musiqi ifaçılarının yeni nəslinin pedaqoji və ifaçılıq fəaliyyəti öyrənilir;
- görkəmli Azərbaycan nəfəsli musiqi ifaçılarının yaradıcılıq fəaliyyətinə dair elmi material toplanılıb, təhlil olunur və ümumiləşdirilir;
- materiallar və məlumatlar əsasında aparılan tədqiqat nəticəsində Azərbaycanda nəfəsli musiqi ifaçılarının ən yaxşı nümayəndələrinin musiqili-yaradıcılıq fəaliyyətinin çoxcəhətli rolu əsaslandırılaraq, öz təsdiqini tapır;
- Azərbaycanda nəfəsli musiqi ifaçılığının mühüm tarixi, nəzəri və təcrübi müddəaları elmi cəhətdən əsaslandırılaraq, göstərilir. Bu müddəalar hazırki sahədə gələcək tədqiqatlar üçün böyük elmi potensial ehtiva edir.

**Tədqiqatın məqsədi**ni Azərbaycanda nəfəsli ifaçılıq sənətinin tarixi, nəzəriyyəsi və təcrübi inkişafının öyrənilməsi təşkil edir.

Tədqiqatın məqsədi öz qarşısına müvafiq **vəzifələr**i qoyur:

- Azərbaycanda Avropa tipli nəfəsli musiqi alətlərinin professional ifaçılıq xüsusiyyətlərinin tarixi şərtlərinin üzə çıxarılması;

- Nəfəsli musiqi alətlərində müasir ifaçılıq məktəbinin baniləri və görkəmli nümayəndələrinin rolu və fəaliyyətinin tədqiq olunması;

- Azərbaycanda nəfəsli musiqi ifaçılığı sahəsində nəşr olunmuş elmi-metodik əsərlərin təhlili;

- Azərbaycanda keçirilən nəfəsli ifaçılıq sənəti üzrə müsabiqələrin didaktik əhəmiyyətinin və maarifçilik rolunun üzə çıxarılması;

- Azərbaycanda fleyta ifaçılığı və pedaqoji təcrübənin ümumiləşdirilərək, öyrənilməsi;

- fleyta və fortepiano və nəfəsli kvintet üçün pedaqoji repertuarın ifaçılıq təhlilini aparmaq.

Hazırkı tədqiqat işində tətbiq olunmuş **metod** praktiki nəticələrin tarixi və nəzəri cəhətdən sintezindən ibarətdir:

- Azərbaycan musiqi mədəniyyəti və professional musiqi təhsilinin tarixi inkişafı;

- Nəfəsli ifaçılıq sənətinin nəzəriyyəsi və təcrübəsi;

- Fleyta ifaçılıq sənətinin tədqiqinə dair fleytada ifa üsulları metodikası.

Yerinə yetirilən **tədqiqatın metodologiyasını** Azərbaycanda professional musiqi təhsilinin banisi Üzeyir Hacıbəylinin fundamental elmi əsərləri təşkil etmişdir. Görülən işin fundamental əhəmiyyətini Azərbaycan və xarici ölkələrin nəfəsli ifaçılıq sənəti, pedaqogikası və elmi-metodik fəaliyyətinin öyrənilməsi təşkil edir, məsələn, A.X.Maqomedov, Ə.M.İsgəndərov, A.Abdullayev, eləcə də N.Platonov, N.Nazarova, A.Usubova, Y.Krılevski, D.Qeilvey, D.Briççaldi, M.Beznosov, Q.Arlandı misal göstərmək olar.

**Tədqiqatın obyektini** Azərbaycanda nəfəsli ifaçılıq sənətinin öyrənilməsi təşkil edir.

**Tədqiqatın predmetini** – Azərbaycanda nəfəsli ifaçılıq sənətinin tarixi, nəzəriyyəsi və təcrübi inkişafı təşkil edir.

**Tədqiqatın praktiki əhəmiyyəti:** aparılan tədqiqatın nəticələri musiqişünaslıq sahəsinə, xüsusən də Azərbaycanda nəfəsli ifaçılıq sənətinin tarixi, nəzəriyyəsi və təcrübəsinə əhəmiyyətli töhfədir. Görkəmli Azərbaycan nəfəsli ifaçılıq sənətinin pedaqoji və ifaçılıq təcrübəsinin ümumiləşdirilməsi geniş ifaçılıq təcrübəsinə, eləcə də müasir təhsil metodikasına dəyərli hədiyyədir. Hazırkı təcrübənin mənimsənilməsi müasir musiqi ifaçılıq mədəniyyətinin inkişafına şərait yaradır. Dissertasiya işində cəmləşən dəyərli material nəfəsli ifaçılıq sənətinin tarixi, nəzəriyyəsi və praktik təcrübəsinin öyrənilərək təhlil olunub, ümumiləşdirilməsi bu sahədə gələcək tədqiqat işlərinin elmi potensialını təşkil edir.

**Tədqiqatın aprobasiyası** Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının bazasında, "Nəfəs və zərb alətləri" kafedrasında uzun müddətli pedaqoji fəaliyyəti prosesində, Bakı Musiqi Akademiyasının Xüsusi Musiqi Məktəb-studiyasında iş təcrübəsi zamanı, eləcə də Azərbaycanda və xaricdə çoxsaylı solo və ansambl konsertlərində çıxışı ilə həyata keçirilmişdir. Bununla yanaşı, Bakı Musiqi Akademiyasının bazasında təşkil olunmuş elmi-praktik konfranslarda, habelə "Musiqi tarixi" və "Nəfəs və zərb alətləri" kafedralarının müştərək iclaslarında iddiaçının məruzə və çıxışları, eyni zamanda onun dövri mətbuatda işıq üzü görən müxtəlif əsərləri təqdim olunmuşdur.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi Giriş, üç fəsil, altı paraqraf, Nəticə, eləcə də istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı, işlənmə dərəcəsi, elmi yeniliyi əsaslandırılır, işin məqsəd və vəzifələri, metodoloji əsası, praktiki əhəmiyyəti təyin olunur, dissertasiyanın materialı, aprobasiyası və strukturu müəyyənləşdirilir.

**I Fəsil – "Azərbaycanda nəfəsli ifaçılıq sənətinin inkişaf tarixi"** – Azərbaycanda Avropa tipli nəfəsli musiqi alətlərində ifaçılığın yaranması, təşəkkülü və inkişafını işıqlandıran iki bölmədən ibarətdir. **1.1. Azərbaycanda Avropa tipli nəfəsli musiqi alətlərində ifaçılıq sənətinin inkişafının tarixi şərtləri** adlanır.

Azərbaycanda nəfəsli musiqi-ifaçılıq sənəti olduqca dərin tarixi köklərə malikdir. Onun ənənələri Azərbaycan musiqi mədəniyyətinin inkişaf tarixi ilə sıx bağlıdır. Bu ənənələr hələ qədim zamanlarda təşəkkül taparaq, əsasən şifahi xarakter daşımış və bir nəsildən digərinə ötürülmüşdür. Yəni, varislik prinsipi bu ənənələrin səciyyəvi xüsusiyyətidir. Hər bir musiqiçi - müəllim öz sələflərinin təcrübəsinə əsaslanaraq, onların musiqi ifaçılığında əksini tapan tərbiyəvi ənənələri davam etdirmişdir. Tədricən inkişaf edib təkmilləşdikcə, bu ənənələr müasir nəfəsli musiqi ifaçılıq sənətində də özünün başlıca qanunauyğunluqlarını qoruyub saxlamışdır.

XIX əsrin ikinci yarısı, XX əsrin əvvəlləri Azərbaycanda tarixi, sosial-iqtisadi və siyasi inkişafdan irəli gələrək, milli musiqi mədəniyyəti və ifaçılıq sənətinin inkişaf tarixində yeni mərhələ olmuşdur. Azərbaycanda bu dövrdə Qərbi Avropa və milli musiqi mədəniyyətinin fəal inteqrasiya prosesi həyata keçirilmişdir. Məhz bu dövrdə Moskva, Peterburq və başqa şəhərlərdən Bakıya gələn məşhur musiqi ifaçıları, simfonik orkestrlər, opera truppaları qastrol səfərində olmuşlar. 1883-cü ildə xeyriyyəçi H.Z.Ə.Ta-

ğıyev tərəfindən tikilən Opera teatrının səhnəsində onların çıxışları parlaq mədəni hadisəyə çevrilmişdir. Ü.Hacıbəylinin "Leyli və Məcnun" muğam operasının premyerası da həmin səhnədə həyata keçirilmişdir.

1901-ci ildə Rus Musiqi Cəmiyyətinin (RMC) Bakı şöbəsinin yaradılması ümumi musiqi maarifçilik işini, konsert-ifaçılıq fəaliyyətini və professional musiqiçi kadrlarının hazırlığını daha da fəallaşdırır. 1920-ci ildə təcrübəli dirijor M.Çernyaxoskinin rəhbərlik etdiyi ilk simfonik orkestr təşkil olunur və məşhur musiqi ifaçılarının iştirakı ilə sistematik konsert mövsümləri həyata keçirilir. Proqramda dünya musiqi inciləri səslənirdi.

1921-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının təşkil olunması ilə Avropa tipli nəfəsli musiqi alətlərində ifaçılığın inkişaf prosesi məqsədyönlü, intensiv və mükəmməl formalaşma dövrünə qədəm qoyur. Azərbaycanda və bütün Şərqdə ilk musiqi tədris ocağında beş şöbə (komissiya fənləri) mövcud idi: fortepiano, vokal, orkestr, nəzəri-bəstəkarlıq və şərq musiqisi. Burada işləmək üçün xüsusi istedada malik musiqiçilər dəvət olunmuşdu. Onların pedaqoji və ifaçılıq fəaliyyəti milli musiqi-ifaçı kadrlarının, o cümlədən nəfəsli musiqi alətlərində ifa edən musiqiçilərin hazırlanmasında böyük rol oynamışdır. Xüsusilə qeyd edək ki, konservatoriyanın təşkilinin ilk günlərindən orkestr şöbəsində simli alətlərlə yanaşı, nəfəsli musiqi alətləri sinfi də yaradılmışdı : fleyta, qoboy, klarnet, faqot, valtorna, truba, trombon ifaçılarının yetişməsində Moskva və Peterburq konservatoriyalarının məzunları olan yüksək peşəkar musiqiçilər: Q.Y.Mədətov (fleyta), Q.K.Popovitski (qoboy),V.A.Knyazkov (qoboy), İ.A.Fedoroviç (klarnet), F.V.Çyornıx (faqot), S.İ.Berolski (valtorna), A.P.Kolpinski (truba), S.S.Bulatov (trombon) və digərləri əmək sərf etmişlər.

Nəfəsli musiqi ifaçılıq sənətinin inkişafında Azərbaycan Dövlət Türk Musiqi Texnikumunun (1922-1926) fəaliyyəti də böyük rol oynamışdır. Belə ki, burada müxtəlif ixtisaslar üzrə musiqiçilərin, o cümlədən instrumental-nəfəsli alətlər üzrə ifaçıların yetişməsi həyata keçirilirdi. Üzeyir Hacıbəylinin rəhbərlik etdiyi bu musiqi tədris müəssisəsi milli kadr hazırlığında əsas mərkəz idi.

Qeyd etmək lazımdır ki, məhz musiqi təhsil sistemində bərqərar olmuş bu ardıcıllıq sistemi təhsilin ilkin, orta və yüksək mərhələlərini harmonik şəkildə cəmləşdirərək, Avropa və rus ifaçılıq məktəbinin ən yaxşı ənənələrinə dayaqlanırdı. Dəvət olunan pedaqoji kadrların yüksək sənətkarlığı peşəkar nəfəsli musiqi alətləri ifaçılarının birinci nəslinin hazırlığında köməklik göstərmişdir. Sonralar isə, tədricən nəfəsli musiqi alətlərində

milli ifaçılıq məktəbinin yaradılmasına və bu sahədə musiqi ifaçıların ümumi inkişafına xidmət etmişdir.

**1.2. Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Nəfəsli alətlər" kafedrasının inkişaf tarixi və fəaliyyəti** adlanır.

"Nəfəsli alətlər" kafedrasının inkişaf tarixi 1921-ci ildə Azərbaycanda və bütün Şərqdə ilk ali musiqi təhsil müəssisəsi olan konservatoriyanın təşkil edilmə prosesi ilə bilavasitə bağlıdır.

"Nəfəsli alətlər" kafedrasının ilk kafedra müdiri Q.K.Popovitski (1921-1933), sonra isə S.İ.Berolski (1033-1943) olmuşdur. Arxiv materialları göstərir ki, 1943-1956-cı illər ərzində kafedra müvəqqəti olaraq öz fəaliyyətini dayandırmışdır.

1956-cı ildən 1965-ci ilə qədər nəfəs və zərb alətləri kafedrasına A.X.Maqomedov, 1965-ci ildən 1992-ci ilə qədər A.C.Abdullayev rəhbərlik etmişdir. Bu dövrdə "Nəfəs və zərb alətləri" kafedrasının müəllimlərinin fəaliyyəti aktivləşir, pedaqoji repertuar forma, üslub, janr etibarilə genişlənir, tədrisin keyfiyyəti təkmilləşir, Moskva, Peterburq və digər şəhərlərin aparıcı konservatoriyalarında pedaqoji kadrların ixtisaslaşdırılması problemi öz həllini tapır.

1967-ci ilin mart ayında Bakıda fəaliyyətə başlayan mədəniyyət işçilərinin "Nəfəsli musiqi alətləri ifaçılarının yaradıcılıq birliyi" (təşkilatın ilk sədri dosent Ə.Əfəndiyev) ilk növbədə, respublikada musiqi ifaçılarının hərtərəfli yaradıcılıq fəaliyyətinin qarşılıqlı əlaqəsinə təkan verir. Bu təşkilat gənc ifaçıların təlim-tərbiyə olunması üzrə pedaqoji kadr işini birləşdirərək, onların peşəkar hazırlığını təkmilləşdirir, eləcə də müxtəlif səpkili musiqi tədbirləri, müsabiqə, baxış və festivalların keçirilməsini aktivləşdirir. "Nəfəsli musiqi alətləri ifaçılarının yaradıcılıq birliyi" Azərbaycanda nəfəsli musiqi alətləri ifaçılarının Respublika, Zaqafqaziya və Ümumittifaq müsabiqələrinə hazırlığında böyük rol oynamışdır.

1992-ci ildən 2003-cü ilə qədər "Nəfəs və zərb alətləri" kafedrasına E.A.Babayev, 2003-cü ildən 2007-ci ilə qədər A.M.Rəsulov rəhbərlik etmişdir. 2008-ci ildən bu günə qədər kafedranı Azərbaycanın xalq artisti, professor Y.Y.Axundzadə idarə edir.

Onun rəhbərliyi altında "Nəfəs və zərb alətləri" kafedrasının fəaliyyətində nəzərə çarpacaq dərəcədə pozitiv dəyişikliklər baş vermişdir. İş təcrübəsinin mübadiləsi məqsədi ilə istər yaşlı, istərsə də gənc nəslə mənsub müəllimlərin sistematik olaraq açıq dərsləri keçirilir. Ayrı-ayrı müəllimlərin tələbələrindən ibarət konsertlərin keçirilməsi isə tədricən

ənənəyə çevrilmişdir. Bu konsertlərin proqramlarında ən müxtəlif üsluba, dövrə, janra mənsub olan əsərlər ifa olunur.

Hazırda "Nəfəs və zərb alətləri" kafedrasının intensiv professional inkişafı bütün təlim-tərbiyə prosesinin təkmilləşməsinə, yeni dərs və elmi-metodik ədəbiyyatın yaradılmasına, pedaqoji ifaçılıq repertuarının genişləndirilməsinə, nəfəs və zərb alətlərinin ümumi ifa mədəniyyətinin inkişafının keyfiyyətcə yüksəldilməsinə imkan yaradır. Sözsüz ki, bütün bunlar nəfəsli musiqi alətləri kafedrasında təhsil alan tələbələrin ali məktəblərdə, respublika və ümumittifaq müsabiqə və festivallarda müvəffəqiyyətlə çıxış etməsinə səbəb olur.

Azərbaycan professional musiqi ifaçılıq mədəniyyətinin bir sahəsi olan nəfəsli ifaçılıq sənəti üzrə aparılan qısa icmal, eləcə də Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Nəfəs və zərb alətləri" kafedrasının məhsuldar fəaliyyəti qoyulmuş problemin nəzəri aspektinin tədqiq olunmasına imkan verir.

**II Fəsil -Azərbaycanda nəfəsli musiqi alətləri ifaçılığının nəzəri aspektinin inkişafı** iki bölmədən ibarətdir. **2.1.Azərbaycanda nəfəsli musiqi alətləri ifaçılığı sahəsində elmi-metodik əsərlərin tədqiqi** adlanır.

Azərbaycanda nəfəsli musiqi alətlərinin ifaçılığı və metodikasına dair həm elmi, həm də metodik xarakterli çoxsaylı əsərlər nəşr olunmuşdur. Bu əsərlər böyük praktik və didaktik əhəmiyyəti ilə fərqlənir. Onların müəllifləri və tərtibçiləri görkəmli musiqi-ifaçıları, xalq və əməkdar artistlər, təcrübəli pedaqoq və məşhur alimlərdir. Bu əsərlərin içərisində aşağıda adı qeyd olunan monoqrafiya və dərs vəsaitləri: A.X.Maqomedovun "Nəfəsli musiqi alətlərində ifa metodikasına dair məsələlər" (1962); "Milli faqot ifaçılığının tarixi, nəzəriyyəsi və təcrübi məsələləri" (1983); Ə.M.İsgəndərovun "Azərbaycan bəstəkarlarının yaradıcılığında fleyta" (1975), "Fleyta üçün əsərlərin üslub və ifaçılıq xüsusiyyətləri" (2002), A.C.Abdullayevin "Qoboy ifaçılığının nəzəriyyə və təcrübəsi" (1968); "Avropa tipli nəfəs alətlərinin ifaçılıq tarixi üzə oçerklər" (2003); B.M.Novruzovun "İki sistemli klarnet ifaçılığında ibtidai təhsil üçün dərs vəsaiti" (1971); A.M.Rəhmanlının "Azərbaycanda klarnet ifaçılıq sənəti" (2010); R.Y.Axundzadənin "Bakı Musiqi Akademiyasının truba sinfinin tarixi" (2014) və digərləri xüsusilə diqqətə layiqdir.

Ali və orta musiqi təhsil müəssisələrinin tədris prosesi üçün mühüm əhəmiyyət kəsb edən bu metodik vəsaitlər Avropa tipli müxtəlif nəfəsli musiqi alətlərində ifaçılığın professional səciyyədə tədris olunması üçün hazırda da geniş tətbiq olunur.

Nəşr olunmuş dərs vəsaitlərinin musiqili-pedaqoji təcrübədə tətbiqi bu əsərlərin geniş yayılmasını və metodik əhəmiyyətini isbat edir və istər pedaqoji, istərsə də ifaçılıq təcrübəsində hazırkı tədris-metodik ədəbiyyatın aktuallığı heç bir şübhə doğurmur.

Adı qeyd olunan mühüm elmi tədqiqatlarla yanaşı, nəfəsli musiqi alətlərinin ifaçılığı və pedaqogikasının müxtəlif problemlərinə həsr olunan çoxsaylı metodik vəsaitlər nəşr edilmişdir.

Nəfəsli ifaçılıq sənətinin elmi-metodik və tədris sahələrinin icmalını yekunlaşdıraraq, ilk növbədə qeyd edək ki, nəşr olunmuş elmi monoqrafiyalar, metodik vəsaitlərə baxmayaraq, musiqi ifaçılığının bu sahəsində xeyli dərəcədə aktual problemlər tədqiq olunmamış qalmaqdadır. Faktiki olaraq, fleyta, qoboy, klarnet, faqot və truba ifaçılığı və pedaqogikasına dair məsələlər daha çox təqdim olunmuşdur. Nəfəsli musiqi alətlərində müasir ifaçılıq repertuarı özündə kifayət qədər həcmli və ən müxtəlif üslub, janr və formalara mənsub əsərləri cəm edir. Nəfəsli musiqi alətləri üzrə müəllim və ifaçılar gələcəkdə da nəfəsli musiqi alətlərinin musiqi-ifaçılıq sənətini elmi və metodik cəhətdən işlənməsini həyata keçirməli və bu sahənin fəal inkişafına və təkmilləşməsinə şərait yaratmalıdırlar.

### 2.2. Azərbaycanda nəfəs və zərb alətlərinin musiqi-ifaçılıq müsabiqələri, onların tərbiyəvi və maarifləndirici rolu.

Nəfəsli musiqi alətləri üzrə Respublika və Beynəlxalq musiqi-ifaçılıq müsabiqələrində Azərbaycan ifaçılarının iştirak etməsi milli musiqi-ifaçılıq mədəniyyəti tarixində parlaq səhifədir.

60-cı illərdən başlayaraq, nəfəsli musiqi alətləri ifaçılarının yaradıcılıq birliyi nəfəsli musiqi alətləri üzrə ifaçılıq müsabiqələrinin keçirilməsinə dair fəal iş həyata keçirir. Nəfəsli musiqi alətlərinin gənc ifaçıları arasında Respublika müsabiqələri, ilk Zaqafqaziya müsabiqə və festivalları keçirilmişdir.

Hər bir müsabiqənin keçirilməsi ilə böyük təşkilati təcrübə əldə olunmuşdur. İştirakçıların yaş kateqoriyası, eyni zamanda onların dəqiq ifaçılıq proqramı tərtib edilmişdir. İfaçılıq proqramının tərtib olunması tədricən təkmilləşdirilmişdir, ifa olunan əsərlərin janr, xarakter, üslub müxtəlifliyi və çətinlik dərəcəsi nəzərə alınmışdır. Tədricən, istisnasız olaraq bütün musiqi ifaçıları üçün turlarının sayı da artırılmışdır.

Müsabiqələrin keçirilməsində ən mühüm nailiyyətlərdən biri də musiqi istedadlarının, qabiliyyətli ifaçıların üzə çıxarılmasından ibarətdir. Sonralar onlar öz məharətlərini başqa Respublika və Beynəlxalq müsabiqə və festivallarında nümayiş etdirmişlər.

Bu gün nəfəsli musiqi alətləri üzrə keçirilən musiqi-ifaçıların Respublika müsabiqələrində iştirak etmiş musiqiçilərin əldə etdiyi pedaqoji və praktiki təcrübə musiqi mədəniyyətinin gələcək inkişafını müəyyənləşdirərək, yeni musiqiçi nəslini tərbiyə edən fundamental bünövrəni təşkil edir.

**III Fəsil – Azərbaycanda fleyta musiqi-ifaçılıq sənəti sahəsində praktik təcrübə -** iki bölmədən ibarət olub, hazırkı təcrübənin tədqiqinə həsr olunmuşdur. **3.1.Azərbaycanda fleyta ifaçılıq sənətinin təcrübəsi** adlanır.Azərbaycan Dövlət Konservatoriyasında fleyta sinfinin təşkilatçısı və ilk pedaqoqu Qriqori Yakovleviç Madatov (1898-1968) olmuşdur. Moskva konservatoriyasında müəllimlər V.Kreçman və V.Tsıbina sinfinin məzunu (1919-cu il) olan Q.Madatov, 1921-ci ildən 1937-ci ilə qədər fleyta ixtisası üzrə dərs demişdir.

Q.Y.Madatov Gürcüstanın əməkdar incəsənət xadimidir (1968-ci il). O, parlaq solist və ansambl ifaçısı kimi alətə əla yiyələnmişdi, səsin genişlik dərəcəsinin kiçik olmasına baxmayaraq, olduqca ifadəli səsə və ifaçılıq mədəniyyətinə malik idi. O, hərtərəfli təhsil almış musiqiçi idi, bir neçə xarici dil bilirdi. Üzeyir Hacıbəyli onun peşəkarlığı, hərcəhətli mədəniyyəti və geniş görüş dairəsini yüksək qiymətləndirərək, ona böyük hörmətlə yanaşırdı. O, eyni zamanda həssas və yüksək peşəkar pedaqoq-psixoloq kimi konservatoriyanın ilk fleytaçılar nəslini yetişdirmişdir. Tələbələrinə təhsil verməklə o, rus fleyta ifaçılığının qabaqcıl təcrübəsinə əsaslanır və hər zaman fleyta ifaçısının texniki inkişafının musiqi inkişafına uyğun gəlməsinə can atırdı. Bu isə ona öz bədii məqsədlərinin kifayət qədər müstəqil bir şəkildə ifadə olunmasına şərait yaradırdı. Bu vahidlik onun pedaqoji prinsiplərinin əsas cəhətlərindən biri idi.

Konservatoriyada fleyta sinfinin özülünü qoyanlardan biri də istedadlı ifaçı, bacarıqlı pedaqoq və musiqiçi – İvan Petroviç Konoplyov (1896-1968) olmuşdur. O, 1936-cı ildən 1945-ci ilə qədər konservatoriyada fleyta ixtisası üzrə dərs demişdir. O da həmçinin, Kreçmanın sinfi üzrə Moskva konservatoriyasının məzunu idi (1922-ci il).

İ.P.Konoplyovun böyük təcrübəsi və parlaq pedaqoji istedadı ona ilk addımlarını atan fleyta ifaçısının güclü və zəif tərəflərini sezməyə, onun bir çox nöqsanlarının səbəblərini müəyyənləşdirib, aradan qaldırmağa, ona səhvlərini izah edib, bu və yaxud digər texniki üsulların inkişafını tövsiyə etməyə, eləcə də lazımi musiqi ədəbiyyatını məsləhət görməyə imkan verirdi.

Öz qabiliyyətinə, təcrübəsinə, dərin biliyinə, pedaqoji həssaslığına, yüksək mədəniyyətə malik olduğuna görə o, Q.Y.Madatov ilə, bərabər rus fleyta ifaçılıq məktəbinin ən parlaq ardıcıllarından və onun fundamental metodik

prinsiplərinin davamçılarından biri kimi etibar qazanmışdır. Azərbaycan fleyta ifaçılığı məhz belə prinsiplər zəminində formalaşaraq, intensiv təşəkkül prosesi keçmiş və özünün növbəti mərhələsinə qədəm qoymuşdur.

Azərbaycan fleyta məktəbinin parlaq nümayəndələrindən biri də Pyotr Naumoviç Zilberman (1901-1969) idi. O, 1931-ci ildə Azərbaycan Dövlət Konservatoriyasını fleyta üzrə Q.Y.Madatovun sinfində bitirmişdir.

Onun pedaqoji prinsiplərinin əsasını təlim metodikasının musiqi ifaçılıq prosesi ilə sıx bağlılığı təşkil edirdi. Fleyta ifaçısı P.N. Zilbermanın ən yaxşı cəhətlərindən biri də ifadəli səs və onun hasil olunması idi. O, bu cəhətə xüsusi diqqət yetirirdi. Çalğı zamanı texniki bacarıqlar üzərində işi o, səs keyfiyyətinin üzərində aparılan işin davamı hesab edir və sübut etməyə çalışırdı ki, kantilena kimi, texniki passajlar da eyni dərəcədə ifadəli səslənməlidir. P.N.Zilbermanın bir pedaqoq kimi fəaliyyəti Konservatoriya nəzdindəki Orta musiqi məktəbində başlamışdır. O, fleyta ifaçılarının yeni nəslini yetişdirmişdir. Onların içərisində Ə.M.İsgəndərov, M.M.Ağamalızadə, Y.Y.Axundzadə, Ç.M.Babayev və digərləri Respublikanın müxtəlif musiqi müəssisələrində müəllimin pedaqoji ənənələrini davam etdirmişlər.

Azərbaycanda fleyta ifaçılığının inkişafına və peşəkar fleyta ifaçılarının hazırlanmasına dəyərli töhfə verən təcrübəli və istedadlı musiqiçilərdən biri də Ələkbər Mirzə oğlu İsgəndərov olmuşdur (1921-2006). O, 1939-cu ildə Bakı Musiqi Texnikumunu fleyta ixtisası üzrə (İ.Konoplyovun sinfi) bitirmişdir. 1950-ci ildə Azərbaycan Dövlət Konservatoriyasını P.Zilbermanın sinfində başa vuraraq, 1966-cı ildə Azərbaycan Elmlər Akademiyasının İncəsənət İnstitutunda aspirantura şöbəsini bitirmişdir (rəhbəri B.Trizno və A.Dmitriyev). 1968-ci ildə sənətşünaslıq üzrə namizədlik dissertasiyası müdafiə etmişdir.

Ə.M.İsgəndərovun müvəffəqiyyətli konsert-ifaçılıq fəaliyyəti təkcə Azərbaycan Dövlət Konservatoriyasında deyil, həmçinin Moskva, Tallin, Novosibirsk, Odessa konservatoriyalarında həyata keçirilmişdir. O, Niyazi, Qauk, Kondraşin, Ginzburq və başqa dirijorlarla birgə çıxış etmişdir.

Onun ifaçılıq repertuarında fleyta və fortepiano üçün əsərlərə həsr olunan tematik konsert-məruzələri əhəmiyyətli yer tutmuşdur.

Ə.İsgəndərov həmçinin, fleyta və fortepiano üçün orijinal əsərlər, işləmə və köçürmələrdən ibarət doqquz məcmuənin, habelə Moskva və Bakıda nəşr olunmuş öz əsərlərinin – fleyta və fortepiano üçün süita və pyeslərin müəllifidir.

Professor Ə.İsgəndərovun fleyta sinfinin ənənələri onun çoxsaylı ardıcılları tərəfindən ləyaqətlə davam etdirilir.

Babayev Rəhim Sadıx oğlu 1930-cu ildə Bakıda anadan olmuşdur. O, Ə.İsgəndərovun fleyta sinfinin ən parlaq yetirmələrindəndir. O, özünün ifaçılıq fəaliyyətini pedaqoji fəaliyyəti ilə aktiv şəkildə uzlaşdırmışdır. Musiqini düzgün qavrama qabiliyyəti, özünənəzarət, hədsiz dərəcədə fəallıq onun fleyta ifaçıları ilə apardığı metodik işin əsasını təşkil edir, bu isə ifaçılıq fəaliyyətinin ən zəruri elementlərindəndir.

Ə.İsgəndərovun fleyta ifaçılıq məktəbinin layiqli davamçılarından biri də Müzəffər Məmməd İbrahim oğlu Ağamalızadədir.

Ə.İsgəndərovun sinfində uzun müddət təhsil alaraq (məktəb və tələbəlik dövrü) o, öz müəllimindən ən dəyərli ifaçılıq ənənələrini, bu sənətin bir sıra vacib nüanslarını əxz etmiş və nəsillərin varisliyini həyata keçirərək, onun fleyta ifaçılıq məktəbinin davamçısı kimi çıxış etmişdir.

M.Ağamalızadənin yüksək pedaqoji professionalizmi ondan ibarətdir ki, onun sinfində təhsil alan tələbə-fleyta ifaçıları ən müxtəlif fleyta repertuarı zəminində fleyta ifaçılığının spesifika və texnikasını dərindən və müfəssəl öyrənərək, təkcə professional ifaçı deyil, həm də pedaqoji fəaliyyətini də uğurlahəyata keçirməklə, yeni ifaçılar nəslini tərbiyə edir.

**3.2. Fleyta və fortepiano və nəfəsli kvintet üçün seçilmiş pedaqoji repertuarın ifaçılıq təhlili** adlanır.

Bəllidir ki, fleyta ifaçısının pedaqoji repertuarı əsasən fleyta üçün yazılmış əsərlərdən, orkestr partiyaları və işləmələrdən ibarətdir. Bunlardan sonuncu fleyta ifaçısının hərtərəfli bədii-estetik inkişafı və peşəkar ifaçılığının əldə olunmasında böyük rol oynayır.

Nəfəsli musiqi alətləri, o cümlədən fleyta üçün işləmələr Azərbaycan musiqi mədəniyyətinin təşəkkülü və inkişafında əhəmiyyətli olmuşdur.

İfaçılıq tarixindən məlumdur ki, bir çox istedadlı sənətkarlar öz işləmələri ilə bacarıq nümayiş etdirərək, dərin yaradıcılıq prosesinin - "ikinci yaradıcılıq məhsulu" olması fikrini təsdiqləmişlər. Məhz belə bədii-estetik mövqeyə əsasən yeni bədii məzmuna malik aşağıda adı çəkilən fleyta və fortepiano üçün işləmələr yaradılmışdır. Özünün yüksək bədii dəyəri sayəsində, onlar çox geniş musiqili-maarifçilik funksiyasını yerinə yetirirlər. Belə ki, musiqi sənətinin ən yaxşı əsərlərinin təbliği və geniş yayılmasına köməklik edirlər.

Fleyta ifaçısının musiqi əsəri üzərində yerinə yetirdiyi praktik məşğələyə nümunə olaraq bu bölmədə fleyta və fortepiano üçün seçilmiş əsər və işləmələrin ifaçılıq təhlili təqdim olunmuşdur.

Onların içərisində : İ.S. Bax – 2 saylı h-moll orkestr uvertürası, F.List – 3 saylı Noktürn – "Məhəbbət xəyalları", F.Born – "Fantaziya", F.Əmirov – "Bulaq başında", "Noktürn", C.Cahangirov – "Miniatür", T.Quliyev – "Kiçik skertso", O.Rəcəbov – "Skertso", Ə.İsgəndərov - "Rapsodiya"nın adını çəkmək olar.

Beləliklə, ifaçılıq təhlili əsərin struktur quruluşunu, əsas və ya ikinci dərəcəli kulminasiyaya doğru yönələn dinamik istiqaməti müəyyən etməyə, vahid tamın meydana çıxarılmasına kömək edir. Melodik, ritmik, temp strukturları və s. bir-biri ilə qarşılıqlı əlaqədədir və özünün spesifik ifadə vasitələri ilə əsərin ümumi xarakterini müəyyənləşdirir. Onlardan hər birinin rolu əsərin məzmununu ifadə etməyə imkan yaradır. İfaçı bəstəkar tərəfindən irəli sürülən bu ifadə vasitələrini dəyişdirməməlidir. Bu ifadə vasitələri sadəcə olaraq, əsərin dərk olunması üçün düzgün yol göstərir. Beləliklə, əsərlə ilkin tanışlıq nəticəsində fleyta ifaçısı əsər barəsində mümkün qədər çox bilməli, qarşısında duran texniki və bədii məqsədləri dərk etməli, pyesin yekun səslənməsini təsəvvüründə canlandırmalıdır.

Fəsillər üzrə aparılan konkret qənaətlərdən irəli gələrək, dissertasiyanın **Nəticə**sində tədqiqata yekun vurulur və qeyd olunur ki, özündə ənənə və novatorluğu uzlaşdıran Azərbaycan nəfəsli ifaçılıq sənətinin tarixi, nəzəriyyəsi və təcrübi inkişafı daimi dialektik inkişafdadır : tarixən təşəkkül tapan ifaçılıq ənənələri ilə dünya musiqi təcrübəsi bir-birinə qarşılıqlı təsir göstərir. Azərbaycan musiqi mədəniyyətinin bütün tarixi inkişafı ərzində müşahidə olunan ənənə və novatorluğun fəal inteqrasiyası bu müddəanın əsaslandırılmasına imkan verir.

**Dissertasiyanın məzmununa uyğun olaraq aşağıdakı elmi əsərlər çap olunmuşdur:**


1. Синтез психологических и личностных факторов в работе дирижёра духового оркестра. / Доклад и тезисы на республиканской конференции в институте "Memarlıq və inşaat". Баку, декабрь, 2012.
2. Психологические особенности в деятельности дирижёра оркестра. // Журнал "Konservatoriya" № 2. Баку, 2012, с. 72.
3. О традициях и преемственности конкурсов музыкантов-исполнителей на духовых и ударных инструментах в Азербайджане. // Журнал "Musiqi dünyası" № 1/50. Баку, 2012, с. 128.
4. Роль конкурсов для духовых и ударных инструментов имени Ф. Амирова в повышении педагогического мастерства и исполнитель-

ского совершенства. / Доклад и тезисы на республиканской конференции по поводу юбилея Ф. Амирова. Баку, апрель, 2013.

5. Азер Абдуллаев и его роль в развитии музыкально-исполнительской культуры Азербайджана. // Журнал “Harmony” № 12.Баку, 2013. www.harmony.musigi-dunya.az

6. История развития и деятельность кафедры «Духовых и ударных инструментов» Бакинской Музыкальной Академии имени У. Гаджибейди. // Журнал “Konservatoriya” № 1. Баку, 2013, с. 79.

7. Исторические предпосылки развития исполнительства на духовых инструментах европейского типа в Азербайджане. // Журнал “Müasir mədəniyyətşünaslıq” № 1. Баку, 2013, с. 52.

8. Преломление наиболее популярных тем из оперы «Кармен» Ж. Бизе в виртуозной фактуре фантазии для флейты и фортепиано Ф. Борна. // Журнал “Musiqi dünyası” № 3/56. Баку, 2013, с.80.

9. Некоторые психологические особенности работы дирижёра с оркестром духовых и ударных инструментов. / Доклад на международной конференции “Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri”. Баку, май, 2015.

10. Преодоление исполнительских сложностей в классе флейты в работе со студентами. / Тезисы доклада на XXXII международной конференции, посвящённой проблемам общественных наук. Москва, 2015, с. 58.

11. Опыт флейтового исполнительства в Азербайджане. // Журнал «Мир науки, культуры, образования». Горноалтайск, 2015, с. 310.

**Orkhan Nijad Zeynalli**

# HISTORY, THEORY AND PRACTICE OF PERFORMING ON WIND INSTRUMENTS IN AZERBAIJAN

## Summary

In this dissertation there's studied history, theory and practice of performing on wind instruments in Azerbaijan which's the actual, interesting and seriously unexplored topic in musical science. This is the first time that study shows and substantiate not only the role of European wind instruments in Azerbaijan performing history, but also historical importance of different wind instruments' creative heritage.

This dissertation study consists of Index, three chapter, Result and list of literature which's used.

The firstchapter is named "**The history of the wind performing arts in Azerbaijan**" and consists of two parts. **1.1.** is about **"Historical background of performing on European wind instruments in Azerbaijan"**. **1.2.** is about **"The history, development and activity of the department of Wind and Percussion instruments of Baku Music Academy named Uzeyir Hajibayov"**.

In this section there's explained the history of European wind performing arts in Azerbaijan, in addition, history of wind and percussion instruments department in Conservatory.

The second chapter is named "**The theoretical aspect of the development of choral performing in Azerbaijan**" and consists of two parts. **2.1.** is about **"An analysis of published scientific and methodological works in the field of choral performing in Azerbaijan"**, **2.2.** is about **"Contests of musicians on wind and percussion instruments in Azerbaijan and their upbringing and educational role"**.

In this section there's showen analysis of scientific studies of teachers about "Department of wind and percussion instruments" and importance of this department. In addition, there's noticed different contests, role and the iportance of these contests on development of performing.

The third chapter is named "**Practical experience in the field of music and performing arts on the flute in Azerbaijan**" and consists of two parts. **3.1.** is about **"Experience of flute performing arts in**

**Azerbaijan"**, **3.2.** is about **"Performing analysis of chosen pedagogical repertoire for flute and piano and wind quintet"**.

In this section there's explained with details the establishment, development and experience of the flute performing school in Azerbaijan. In addition, there's shown detailed analysis of a variety of works written for flute and piano that processing for brass quintet

As a **result**, there's studied wind performing instruments in the context of national musical performing culture, following the path of its evolution determines of place in an Azerbaijanian music culture. In addition, all facts are substantiated with point of view of history and all of them are summarized with the stipulation of interaction between Azerbaijanian and European traditions.

Çapa imzalanıb: 15.10.2015.
Format: 60x84 1/16. Tiraj: 100.

**«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru